*UOT 159.9*

***Rəna Nüsrəddin qızı Cəbrayılova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*pedaqoji psixologiya kafedrasının baş müəllimi*
*https://orcid.org/0009-0002-9335-4782*
https://doi.org/10.69682/azrt.2024.91(2).249-253

# ALİ MƏKTƏBLƏRDƏ TƏLƏBƏLƏRİN TƏLİM FƏALİYYƏTİNİN MOTİVASİYASININ MÜASİR ASPEKTLƏRİ

***Рена Нусреддин гызы Джабраилова***
*старший преподаватель кафедры Педагогической психологии*
*Азербайджанского Государственного Педагогического Университета*

# СОВРЕМЕННЫЕ АСПЕКТЫ МОТИВАЦИИ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ В ВУЗЕ

***Rana Nusraddin Jabrayilova***
*senior lecturer of department of Pedagogical Psychology at*
*Azerbaijan State Pedagogical University*

# MODERN ASPECTS OF MOTIVATION FOR STUDENTS' EDUCATIONAL ACTIVITIES AT THE UNIVERSITY

**Xülasə.** Elmi məqalədə ali məktəblərdə tələbələrin təlim fəaliyyətinin motivasiyasının müasir aspektləri araşdırılır. Məqalədə göstərilir ki, peşə motivasiyası təhsildə tələbənin peşəkarlığının və şəxsiyyətinin inkişafında daxili hərəkətverici amil kimi çıxış edir, çünki motivasiyanın yalnız yüksək səviyyədə inkişafı əsasında uğurlu təhsilə və şəxsiyyət mədəniyyətinə nail olmaq mümkündür. Tədqiqat eksperimental xarakterlidir. Tədqiqatın nəticəsinə görə, tələbələrin təlim və idrakının davamlı motivasiyasını formalaşdırılması məqsədilə onların cinsi, milli xüsusiyyətləri, təhsil səviyyəsi, ilkin yaşayış yeri, əzmkarlıq gücü, təlimə iradi münasibət, temperament tiplərinin nəzərə alınması əsas şərtdir.
***Açar sözlər:*** *təlim motivasiyası, peşə motivasiyası, peşəkarlıq, mənlik konsepsiyası, motivlərin fərdi xüsusiyyətləri.*

**Резюме.** В научной статье рассматриваются современные аспекты мотивации учебной деятельности студентов вуза. В статье показано, что профессиональная мотивация выступает внутренним движущим фактором развития профессионализма и личности студента в образовании, ведь добиться успешного образования и культуры личности можно только на основе высокого уровня развития мотивации. Согласно результатам исследования, для формирования непрерывной мотивации обучения и познания учащихся необходимо учитывать их пол, национальные особенности, уровень образования, основное место жительства, настойчивость, волевое отношение к учебе и типы темперамента.
***Ключевые слова:*** *учебная мотивация, профессиональная мотивация, профессионализм, концепция Я, индивидуальные особенности мотивов*

**Summary.** The scientific article examines modern aspects of the motivation of students' educational activities in higher schools. The article shows that professional motivation acts as an internal driving factor in the development of the student's professionalism and personality in education, because it is possible to achieve successful education and personality culture only on the basis of high level development of motivation. research is experimental in nature. According to the results of the research, in order to form the continuous motivation of students' learning and cognition, it is essential to take into account their gender, national characteristics, education level, primary place of residence, perseverance, volitional attitude to learning, and temperament types.
***Key words:*** *learning motivation, professional motivation, professionalism, self-concept, individual characteristics of motives*

Motivasiya ən mürəkkəb və daha çox diqqət çəkən problemlərdəndir, onun öyrənilməsi insan fəaliyyətinin mənbələrinin axtarışı ilə birbaşa əlaqəli şəkildə hərəkətverici qüvvələr sayəsində hər hansı fəaliyyəti, insan davranışının istiqaməti ilə müəyyən edilir. Universitet təcrübəsinin təhlili göstərir ki, təlimdə dərsdənkənar işlərin müsbət xarakterini nəzərə almadan tələbələrin bilik, bacarıq və vərdişlərinin formalaşdırılması məqsədlərinə diqqət yetirilir. B da təlim prosesində tələbələrin geniş motivasiya sferasının inkişafı və təcrübə arasında ziddiyyət yaradır.

Peşə motivasiyası təhsildə tələbənin peşəkarlığının və şəxsiyyətinin inkişafında daxili hərəkətverici amil kimi çıxış edir, çünki motivasiyanın yalnız yüksək səviyyədə inkişafı əsasında uğurlu təhsilə və şəxsiyyət mədəniyyətinə nail olmaq mümkündür. Peşə motivasiyası dedikdə, peşə seçimini və bu peşə ilə bağlı vəzifələrin uzunmüddətli yerinə yetirilməsini müəyyən edən xüsusi motivlərin hərəkəti başa düşülür. R.V. Qabdreyev, A.V. Smirnova görə, gələcək mütəxəssisin peşə motivasiyası sabit motivlərin məcmusudur ki, onların təzahürü gələcək mütəxəssisin peşəkar baxışlarından, münasibətlərindən, mövqelərindən, habelə onun duyğularından, hisslərindən, peşəkar keyfiyyətlərindən asılıdır [3].

Universitet tələbələri arasında peşə motivasiyanın formalaşdırılması probleminin həllinin effektiv yolu təhsilin təcrübəyönlü xarakterini gücləndirmək, universitetdə təhsil aldığı müddətdə uğurlu peşə təcrübəsi əldə etməkdir. Eyni zamanda, tələbə təcrübəsi peşə fəaliyyətin müsbət təcrübəsinin yaradılması üçün əsas vasitədir. Təcrübə tələbələrin nəzəriyyəsi və idrak fəaliyyəti ilə vəhdətdə hərəkət edir: tələbə, inteqral pedaqoji prosesin fəal subyekti kimi peşə dünyasını empirik olaraq dərk edir və gələcək peşə fəaliyyətinin əhəmiyyətli xassələrini və qanunauyğunluqlarını müəyyənləşdirir.

Tələbə təcrübəsi elmi və praktiki biliklərin mənbəyidir, ümumiləşdirilməsi və nəzəri cəhətdən işlənilməsi üçün zəruri faktiki material verir. Praktiki təlim zamanı əldə edilən biliklər reallığı dəyişdirmək və gələcək mütəxəssislərin ehtiyaclarını ödəmək və fəaliyyət üçün bələdçi kimi istifadə olunur. Belə transformasiya zamanı tələbəni gələcək peşəyə hazırlamaq üçün ideal plan dəyişdirilir, təkmilləşdirilir və inkişaf etdirilir, peşəkar motivasiya gücləndirilir. Praktiki təlimin strukturu qarşılıqlı təsir göstərən elementlər sistemi ilə təmsil olunur: məqsəd, məqsədəuyğun fəaliyyət, məqsədin həyata keçirilməsi prosesində istifadə olunan fəaliyyət vasitələri, nəticələr fəaliyyətin məhsuludur [4, s. 90].

Tələbələrin peşə motivasiyasının formalaşması prosesindən danışarkən, ilk növbədə motivasiya və tələbənin mənlik anlayışı kimi mühüm anlayışlar arasındakı əlaqəni xüsusi qeyd etmək istərdim. Tələbənin mənlik konsepsiyası onun hər hansı bir fəaliyyət sahəsində, o cümlədən peşə sahəsində inkişaf səmərəliliyindən asılı olan mənlik imicidir. Gələcək peşədə dəyişiklik və təkmilləşmə tələbənin özünün imicindəki dəyişiklik və təkmilləşmədən başlayır. Odur ki, praktiki məşğələ tələbəni işdə uğur qazanacağına, peşə tapşırıqlarını yerinə yetirə biləcəyinə və etməyə hazır olduğuna inandırmaqla başlamalıdır. Təcrübə əsaslarının seçimi tələbələr tərəfindən praktikada işləməli olacaq kontingentin xüsusiyyətləri nəzərə alınmadan əsasən öz maraqlarına uyğun olaraq təkbaşına həyata keçirilməməlidir. Çox vaxt tələbələr istehsalat təcrübəsi çərçivəsində fəaliyyətləri gələcək peşə fəaliyyətləri ilə eyniləşdirmirlər və təcrübə yerinin seçilməsinin aparıcı motivi isə özünü bu rolda sınamaq motividir. Nəticə etibarı ilə tələbələrin praktik fəaliyyətə motivasiya münasibətləri daha çox onların peşə səriştələrinin formalaşma dərəcəsi ilə deyil, qarşıdan gələn təcrübədən gözləntiləri ilə müəyyən edilə bilər. IV kurs tələbələrində peşəyə münasibətdə motivasiyanın azalması müşahidə oluna bilər. Mütəxəssis kimi gələcək fəaliyyətlərinin istiqaməti və yeri haqqında daha aydın təsəvvürə malik olan tələbələrin praktik fəaliyyətə həvəsində azalma müşahidə olunmur. Eyni zamanda aydın peşə ideyaları və planları olmayan tələbələr özlərinin peşə seçimlərində motivasiyanın azalmasını və məyusluğu aydın hiss edirlər.

Beləliklə, universitetdə praktiki məşğələ tədris prosesinin tərkib hissəsi olmaqla gələcək mütəxəssisin peşə fəaliyyətini həyata keçirməsi üçün davamlı motivasiyasının formalaşmasında mühüm rol oynayır. Təcrübəli təlim vasitələrinin diqqətlə seçilməsi təcrübənin düzgünlüyünü, onun yüksək effektivliyini, gələcək peşə fəaliyyəti üçün müsbət motivasiyanı müəyyənləşdirir

və tələbələrin müasir peşə davranışı tipinin formalaşmasına kömək edir.

Tədqiqatda 17-18 yaş arası 20 nəfər I kurs tələbəsi iştirak etmişdir. Tədqiqatda aşağıdakı metodlardan: Pedaqoji universitetdə tələbələrin təhsilinin motivasiyası (S.A. Pakulina, M.V. Ovçinnikov), Tələbələrin təhsil fəaliyyətinin motivlərinin öyrənilməsi (A.A. Rean, V.A. Yakunin) istifadə edilmişdir. Bu metodlardan istifadə etməklə əldə edilən nəticələrin təhlili göstərir ki, tələbələrin əksəriyyətində (60%) pedaqoji universitetə qəbulun xarici motivləri daxil olmaqla öyrənmə üçün xarici motivasiyalı motivlər vardır.

Qalan tələbələr (40%) daxili motivasiyalı öyrənmə stimullarına malikdirlər ki, onlar universitetə daxil olmaq üçün daxili motivlər və geniş idrak motivləri kimi təqdim olunur. Motivlərin fərdi xüsusiyyətlərinin nəticələrinin təhlili göstərir ki, bu ixtisasın seçiminə töhfə verən əsas motivlər bunlardır: birinci yerdə - 75% (15 nəfər) - ali təhsil almaq istəyi, ikinci yerdə - 60% (12nəfər) - peşəyə maraq, üçüncüdə – 55% (11 nəfər) – övladlarını tərbiyə etmək üçün pedaqoji biliklərdən istifadə. Tələbələr üçün təlimdə ən əhəmiyyətliləri bunlardır: birinci yerdə - 80% (16 nəfər) – təlim fənlərinin öyrənilməsinə laqeyd qalmamaq, ikinci yerdə - 75% (15 nəfər) - dərin və davamlı biliklərə yiyələnmə, üçüncü yerdə - 70 % (14 nəfər) ) – müvəffəqiyyətlə oxumaq və imtahanlardan "yaxşı" və "əla" qiymətlər almaq. Respondentlərin fikrincə, diplom əldə etmək imkan verir: birinci yerdə - 70% (14 nəfər) - maraqlı iş əldə etmək; ikinci yerdə - 55% (11 nəfər) – özünüreallaşdırmaq; üçüncü yerdə - 50% (10 nəfər) - özünütəkmilləşdirmək.

Nəticə etibari ilə sorğuda iştirak edən tələbələrin əksəriyyəti təlim fəaliyyətindən kənar motivləri seçmişlər. Onlar öyrənmə prosesinə xarici istiqamətləri, başqalarından asılılığı daxil etmişlər. Həmçinin sadələşdirilmiş təlim fəaliyyətlərinə üstünlük vermiş və öyrənmə fəaliyyətlərində zəif intellektual çevikliyi təklif etmişlər. Respondentlərin az hissəsi peşəyə yüksək marağı, dərin biliklərə yiyələnməyi, özünüreallaşdırmağı və özünütəkmilləşdirməyi nəzərdə tutan motivləri seçmiş, verilən təlim tapşırıqlarının həlli üçün kompleks axtarış yollarına üstünlük vermişlər.

*Tələbələrin təhsil fəaliyyətinin motivlərinin öyrənilməsi (*A.A. Rean, V.A. Yakunin) metodundan istifadə etməklə əldə edilmiş nəticələrin təhlili göstərir ki, I kurs tələbələri üçün təhsil qruplarında əhəmiyyətli motivlər aşağıdakılardır: 1) diplom almaq istəyi - 60% (11 nəfər); 2) daim təqaüd almaq - 45% (9 nəfər); 3) valideynlərin və başqalarının razılığına nail olmaq - 40% (8 nəfər); 4) yüksək ixtisaslı mütəxəssis olmaq - 30% (6 nəfər); 5) dərin və davamlı biliklərə yiyələnmək - 25% (5 nəfər). Nəticə etibarilə, bu metodologiyanın nəticələrinə görə, sorğu edilən tələbələr arasında aparıcı yeri öyrənmənin xarici motivləri tutur.

Bu məqsədlə gələcəkdə tələbələrin peşə motivasiyasını inkişaf etdirmək üçün onlarla iş prosesində onların psixoloji və pedaqoji xüsusiyyətlərini nəzərə almaqla onları peşəyə yönəldən, təhsil ünsiyyət ehtiyacını formalaşdıran proqramların işlənib hazırlanması və həyata keçirilməsi zəruridir. Gələcək mütəxəssislərin şəxsiyyətinin peşə mədəniyyətinin səmərəli inkişafı üçün universitetdə peşə hazırlığı mərhələsində artıq tələbənin şəxsiyyət, özünün peşə uyğunluğuna inam, yaradıcılıq qabiliyyətinə malik olması zəruridir. Bunlarla yanaşı pedaqoji potensial, müxtəlif kateqoriyalı tələbələrə fərdi yanaşma bacarığının olması əsas şərtlərdəndir. Bütün bunlar tələbənin gələcək mütəxəssis kimi uğurlu fəaliyyəti üçün önəmlidir.

Motivasiyanın öyrənilməsinin üsul və vasitələrinə aiddir: dərs zamanı və dərsdənkənar vaxtlarda bütün növ fəaliyyətlərdə tələbənin davranışının təbii müşahidəsi, tələbələrlə fərdi söhbətlər, təlimin məqsəd və motivləri ilə bağlı müəllimin birbaşa və dolayı yolla verdiyi suallar, kütləvi materialları tez toplamağa kömək edən anketləşdirmə və s. Tələbələrin təlim və idrak fəaliyyətinin motivlərinin müəyyən edilməsi *Tələbələrin təlim fəaliyyətinin motivlərinin öyrənilməsi metodu* ilə aparılmışdır. Təcrübədə 50 nəfər tələbə sınanılan şəxs qismində iştirak etmişdir.

Tələbələrin təlim-idrak fəaliyyətinin aparıcı motivlərinin müəyyən edilməsi məqsədilə tələbələr bir neçə qrupa bölünmüşdür: cinsə görə fərqlər, milli xüsusiyyətlərə görə fərqlər, əvvəlki təhsil səviyyəsindən fərqlər, əvvəlki təhsil səviyyəsindən fərqlər, əsas yaşayış yerindən fərqlər. Qızlar üçün əhəmiyyətli motivlər əvvəlcədən uğuru əldə etmək, uğurlu təhsil almaq və məşğulluq motividir. Oğlanlar üçün əhəmiyyətli

maddi rifahın əldə edilməsi motivi, həmçinin intellektin inkişafı və məşğulluq motividir. Bundan əlavə, qızlar oğlanlarla müqayisədə təhsil və idrak fəaliyyətlərində daha yüksək əzmkarlıq gücü ilə seçilirlər. Qız tələbələrin 55%-i nailiyyətə yüksək səviyyədə ehtiyac olduğunu göstərir və 45%-i orta səviyyədədir, oğlan tələbələrin yalnız 77%-nin uğura ehtiyacı orta səviyyədədir. Oğlanların 18%-nin uğura ehtiyacı aşağı səviyyədədir.

Tələbə oğlanlar arasında təhsil və idrak fəaliyyəti üçün motivasiyanın həyata keçirilməsi mexanizmlərinin formalaşdırılmasının diqqətlilik, fərdi yanaşma tələb etdiyi qənaətinə gəlməyə imkan verir. Təhsil və idrak fəaliyyətinin yüksək motivasiya aspekti tələbələrdə aşkar edilmişdir. Tədris və idrak fəaliyyətinin aparıcı motivlərini təhlil edərkən tələbələr təlimin uğurunu müəyyən edən psixoloji amil kimi əldə etdikləri məlumatları üçüncü ilə müqayisə edirlər. Əldə edilən məlumatlar tələbələrin 46,8%-də təlim fəaliyyətində yüksək motivasiyanın üstünlük təşkil etdiyi qeydə alınmışdır. Tələbələrin 11,5%-də isə təlimdə motivasiyanın orta səviyyəsi, 4,6%-də isə təlim fənnləri üzrə orta bal aşkar edilmişdir.

**Cədvəl 1. Tələbələrin motivasiya qrupları**

| Qruplar | Aparıcı motivlər | Əzmkarlığın gücü | Uğura tələbatın səviyyəsi |
|---|---|---|---|
| I | - məşğulluq<br>-intellektini inkişaf etdirmək | Yüksək | Orta (63%)<br>Yüksək (37%) |
| II | - məşğulluq<br>-uğurlu təhsil almaq | Yüksək | Yüksək (62%)<br>Orta (38%) |
| III | - məşğulluq<br>- intellektini inkişaf etdirmək<br>- uğurlu təhsil almaq | Orta | Orta (79%) |
| IV | - uğurlu təhsil almaq<br>- məşğulluq | Orta | Orta (76%)<br>Aşağı (7%) |

Tələbələrin motivasiya sferası tələbələrin təlim-idraki fəallığını artırmaq üçün bir vasitədir. Bunun üçün ilk növbədə tələbələrin milli xüsusiyyətləri, cinsi, əvvəlki təhsil səviyyələri, ilkin yaşayış yerləri, əzmkarlıq gücü, temperament tipləri nəzərə alınmalıdır. Bu proses son nəticədə davamlı olaraq tələbələrin formalaşmasına aparıb çıxaran və ümumilikdə öyrənməyə müsbət münasibəti ifadə edən bir prosesdir. Beləliklə gəldiyimiz nəticələr aşağıdakılardır: 1) Tələbələrin təlim və idrak fəaliyyətinin aparıcı motivləri universitetin tələbələrinin məşğulluq, intellekti inkişaf etdirmək, təhsildə uğur əldə etmək motivləridir. 2) Tələbələrin təlim və idrakının davamlı motivasiyasını formalaşdırılması məqsədilə onların cinsi, milli xüsusiyyətləri, təhsil səviyyəsi, ilkin yaşayış yeri, əzmkarlıq gücü, təlimə iradi münasibət, temperament tiplərinin nəzərə alınması əsas şərtdir. 3) Təlim və idrak fəaliyyətinə münasibətdə motivasiya qruplarının müəyyən edilməsinə aiddir: motivasiyası yüksək olan qrup, motivasiyası ortadan yuxarı olan qrup, motivasiyası orta olan qrup, orta motivasiyadan aşağı olan qrup.

**Problemin aktuallığı.** Elmi məqalədə tələbələrin təlim və idrakının davamlı motivasiyasını formalaşdırılması məqsədilə onların cinsi, milli xüsusiyyətləri, təhsil səviyyəsi, ilkin yaşayış yeri, əzmkarlıq gücü, təlimə iradi münasibət, temperament tiplərinin nəzərə alınması xüsusi olaraq vurğulanır.

**Problemin elmi yeniliyi.** Təlim və idrak fəaliyyəti üçün motivasiyanın formalaşması prosesinə mərhələli, dinamik və idarəolunan proses kimi baxılmalıdır. Çünki bu proses nəticədə davamlı olaraq tələbələrin formalaşmasına aparıb çıxaran və ümumilikdə öyrənməyə müsbət münasibəti ifadə edən bir prosesdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Бадмаева, Н. Ц. Влияние мотивационного фактора на развитие личности / Н.Ц. Бадмаева. – Улан-Удэ: Издательство ВСГТУ, –2014. –280 с
2. Батаршев А.В. Психодиагностика способности к общению или как определить организаторские и коммуникативные качества личности. –М.: Владос, –2001
3. Габдреев Р.В., Смирнов А.В. Формирование мотивации учебно-познавательной деятельности студентов ВУЗа // Образование и саморазвитие. – 2008. – № 10. – С. 227–233.
4. Иванникова В.А. Понятие личности в психологии. // Вопросы психологии. –М: 2012, №5, Логос, –2006. – 368 с.

**E-mail:** rena.cebrayilova1234@gmail.com
**Redaksiyaya daxil olub:** 16.04.2024